**DOI: https://doi.org/10.59849/2957-3882.2024.2.25**
**UOT: 82-1.512.162**

# HAFİZ ŞİRAZİNİN YARADICILIĞINDA SOSİAL VƏ DİNİ MÖVZULAR

**Rauf QULUZADƏ***

***Açar sözlər:*** *XIV əsr, Şərq poeziyası, şeir, Hafiz Şirazi, poeziyada din, sosial məsələlər, cəmiyyət və proqressiv ideyalar, Hafiz və ictimai məsuliyyət*

## XÜLASƏ

Hazırkı məqalə Hafizin poeziyasında təsvir etdiyi sosial və dini mövzularda yeniliklərin miqyasını və tərzini təhlil etməyə yönəlmişdir. Hafiz poeziyasında nəzərə çarpan cəhətlərdən ən əsası sosial-dini inancların, cəmiyyətdə azadlığın reallaşması ilə yanaşı riyakarlıq haqqında fikirlərin yeni və müasir üslubda yazılmasıdır.

Dini ruhlu şeirin inkişafı fars ədəbiyyatı tarixində ən həlledici proseslərdən biri olmuşdur. Dini poeziyanın ən erkən, formalaşma mərhələsində - ilk təzahüründən başlamış XII əsrin sonlarına qədər olan inkişaf dövründə – bu poeziya növü üçün xarakterik olan bir sıra poetik janrlar yaranmışdır. Dahi fars şairi və sufi şeyxi Hafiz Şirazinin Quranın konsepsiyasını şeir formasında gözəl şəkildə ifadə etmişdir. O, öz şeirlərini Qurani-Kərimdən, mistik mövzu və məsələlərdən istifadə edərək zənginləşdirmişdir. Şair Allahla olan münasibətini sevgi, həsrət və mənəvi maarifləndirmə kontekstində təqdim etmişdir.

Onun şeirlərində iman və dini məsələlərlə yanaşı, cəmiyyət və ictimai mövzular da geniş şəkildə öz əksini tapmışdır. Hafizin cəmiyyətdəki mövqeyi, imanı və dini təlimlərə bağlılığı, ictimai hadisələrə mistik nöqteyi-nəzərdən baxışı onun poeziyası üçün xarakterik olan bir sıra cəhətləri müəyyən etmişdir. Bu cəhətlərdən birincisi Hafizin dini və ictimai düşüncələrində sıravi insanın mövqeyidir.

Dini və sosial məsələlərdə sərbəstliyə hörmət Hafiz poeziyasının digər mühüm cəhətidir. Onun poeziyası İranın zəngin mədəniyyətindən bir parça olaraq mücərrəd bir mədəniyyəti təmsil edən azad düşüncə hərəkatıdır. Müasir dövrün təbirincə, Hafizin şeirlərində əsl demokratiyaya rast gəlirik. O, cəmiyyət qarşısındakı məsuliyyətini öz qəzəllərində ictimai məsələləri qabartmaqla nümayiş etdirmişdir.

Hafiz poeziyasının mühüm cəhətlərindən üçüncüsü ikiüzlülük və riyakarlığın tənqididir. Hafiz də bu çirkin əməli fitnə-fəsad, ədalətsizlik və inamsızlıq yaradan mənfur əməl hesab edərək tənqid edir, səmimiliyi, düzgünlüyü tərif edirdi.

Şairin tərcümeyi-halı, xüsusən onun erkən həyatı haqqında çox az məlumat olsa da, müxtəlif illərdə Hafizin divanını tərtib etmiş iranlı ədəbiyyatşünas alimlər şairin həyatının müxtəlif mərhələlərində baş vermiş hadisələrin onun yaradıcılığına təsiri ilə bağlı maraqlı məlumatlar toplamışlar. Hafiz Şirazinin fars ədəbiyyatının zirvəsi hesab olunan əsərləri təkcə XIV əsrdən sonrakı farsdilli poeziyaya deyil, həm də türkdilli ədəbiyyata da təsir göstərmişdir.

* *Bakı Dövlət Universiteti, Şərqşünaslıq fakültəsi, Orta Şərq dilləri və ədəbiyyatı kafedrası.*
*E-mail: raufquluzade24@gmail.com*

**Giriş**

Dini ruhlu şeirin inkişafı fars ədəbiyyatı tarixində ən həlledici proseslərdən biri olmuşdur. Prosesin ilk izlərinə artıq X əsrin ədəbiyyatında rast gəlmək olar ki, bu da fars dilinin ədəbi istifadəsini stimullaşdırmaq üçün çox işlər görən Samanilər dövrünə təsadüf edir. Sonrakı iki əsrdə, Qəznəvilər və Səlcuqlar dövründə cəmiyyətin müxtəlif qruplarına mənsub olan bir sıra şairlərin yaradıcılığında dini xətti izləmək olar. XII əsrdə dini poeziya artıq fars ədəbiyyatının ayrılmaz hissəsinə çevrilmişdi. Dinin təsiri yalnız dindar yazıçıların yaradıcılığı ilə məhdudlaşmırdı. O, dünyəvi həyata bağlı qalan poeziyaya da nüfuz etmişdi. Sonrakı əsrlərdə cüzi sayda farsdilli şair dini cərəyandan tamamilə kənarda qalmışdı. Din əslində fars ədəbiyyatının özündən daha çox əhəmiyyət kəsb edirdi.

Dini poeziyanın ən erkən, formalaşma mərhələsində - ilk təzahüründən başlamış XII əsrin sonlarına qədər olan inkişaf dövründə – bu poeziya növü üçün xarakterik olan bir sıra poetik janrlar yarandı. Bu janrlar demək olar ki, ədəbiyyatda ənənəvi olaraq istifadə olunan şeir formalarına əsaslanırdı. (Hans de Bruijn, 2020, s.1).

Bəzən fars ədəbiyyatında dini şeirin Məhəmməd peyğəmbər (s) və onun nəslinin əzadarlığı münasibəti ilə yarandığına inanılır. Bəziləri isə belə hesab edirlər ki, o, məhz dini mistisizm üzərində yaranmışdır.

Azərbaycan farsdilli poeziyasının klassiki, orta əsrlər müsəlman Şərqinin ən böyük şairlərindən biri Nizami Gəncəvinin əxlaqi məsələləri ifadə etdiyi şeirlərində dinə əsaslandığını xatırlamaq yerinə düşər. Dini poeziya məktəbində o taylı, bu taylı Azərbaycanın XX əsrdə yetirmiş olduğu ən görkəmli şairlərdən biri, Azərbaycan və İran ədəbiyyatının fəxri olan Məhəmmədhüseyn Şəhriyarın yerini də xüsusi vurğulamaq lazımdır. (https://www.degruyter.com/document/doi/10.24415/9789400603820-014/pdf?licenseType).

Dahi fars şairi və sufi şeyxi Hafiz Şirazinin Quranın konsepsiyasını şeir formasında gözəl biçimdə ifadə etmişdir. Hazırki məqaləmiz Hafiz Şirazi poeziyasının bəzi mühüm cəhətlərinin təhlilinə həsr olunub.

**Hafiz Şirazinin qısa tərcümeyi-halı**

Hafiz Şirazinin tərcümeyi-halı, xüsusən onun erkən həyatı haqqında çox az məlumat var. Bununla belə, müxtəlif illərdə Hafizin divanını tərtib etmiş iranlı ədəbiyyatşünas alimlər şairin həyatının müxtəlif mərhələlərində baş vermiş hadisələrin onun yaradıcılığına təsiri ilə bağlı maraqlı məlumatlar toplamışlar. Biz də öz növbəmizdə bunu oxucularımıza təqdim edirik. Bəzi mənbələrə görə, Hafiz (tam adı: Şəms əd-Din Məhəmməd Hafiz Şirazi) İranın İsfahan şəhərində, digər mənbələrə görə Şirazda anadan olmuşdur. Doğulduğu ilin 1310-1326-cı illər arasında müxtəlif rəqəmlərlə göstərilməsi də məlumat kasadlığının göstəricisidir.

O, kiçik yaşlarında atasının oxuduğu Quranı dinləyərək əzbərləmişdi. (“Hafiz” - Quranı əzbərləyənlərə verilən addır.) Kömür taciri olan atası həyatdan erkən köçdükdən sonra ailə ciddi borc içində qalmışdır. Yeniyetmə Hafiz anası ilə birgə əmisinin evinə köçməli olmuşdur. Məktəbi tərk edib işləməyə məcbur olmuş Hafiz kifayət qədər savadlı idi; ərəb, fars və türk dillərinə mükəmməl yiyələnmiş, güclü yaddaşı sayəsində Sədi, Əttar, Rumi və Nizaminin bir çox əsərlərini əzbərləmişdir. Deyilənə görə, o, şəhərin zəngin məhəlləsinə çörək aparırmış və burada da füsunkar gözəlliyə malik olan gənc qadın Şax-e Nabatı görmüşdür. Hafizin bir çox şeirləri bu qadına ünvanlanmışdır.

Hafiz sevgilisinə qovuşmağı niyyət edərək, Baba Kuhinin məqbərəsində qırx gün-qırx gecə oyaq qalmışdır. Bu dövrdə o, ruhani ustadı Əttar Şirazi ilə görüşmüş və onun şagirdi olmuşdur. Bəzi mənbələrə görə şair iyirmi yaşlarında evlənmiş və bu izdivacdan yeganə oğlu dünyaya gəlmişdir. Digər mənbələrə görə isə şair gec evlənmiş, iki oğlu olmuş və şair həyatda ikən həm həyat yoldaşı, həm də hər iki övladı erkən vəfat etmişdir.

Hafiz təxminən otuz yaşlarının əvvəllərinə qədər Hafiz Əbu İshaq sarayının şairi olmuş və Şirazda şöhrət və nüfuz qazanmışdır. Bu dövr onun poeziyasında "Ruhani romantizm" mərhələsi adlanır.

Daha sonra o, Şirazdakı bir mədrəsədə Quran müəllimi vəzifəsinə təyin edilmişdir. Lakin Mübariz Müzəffər Şirazı fəth edəndə otuz üç yaşlı Hafizi müəllimlik vəzifəsindən uzaqlaşdırmışdır. Bu dövr Hafizin etiraz şeirləri yazması ilə xarakterizə olunur.

Bir neçə il sonra Şah Şüca zalım hökmdar olan atası Müzəffəri əsir götürmüş və otuz səkkiz yaşlı Hafizi yenidən öz vəzifəsinə qaytarmışdır. Təxminən qırx səkkiz yaşında Hafiz Şah Şucanın rəğbətini itirir və Şirazı tərk edərək İsfahana gedir. Bu dövrün şeirləri Hafizin Şiraza, Şax-e Nabata və mənəvi Ustadı Əttara həsrətindən bəhs edir.

Əlli iki yaşında ikən şair Şah Şücanın dəvəti ilə sürgündən Şiraza qayıtmış və yenidən mədrəsədə müəllimlik vəzifəsinə təyin edilmişdir.

Altmış yaşlı şair mənəvi Ustadı Əttar Şirazi ilə görüşünün qırxıncı ildönümündə, Yaradana qovuşmaq həsrəti ilə, qırx gün-qırx gecə oyaq qalma ritualını bitirdikdən sonra qırx birinci günün səhəri ustadının yanına gedir və həmin gün ali şüuru, Yaradanı dərk etməyə nail olur. Hafiz qəzəllərinin yarıdan çoxunu bu hadisədən sonra yazmışdır. Onun qəzəllərində Yaradana qovuşmuş ustadın səlahiyyəti hiss olunur. Şair yalnız ilahi ilham aldığı zaman şeir yazırmış.

Hafizin 1388-ci (və ya 1389-cu) ildə altmış doqquz yaşında vəfat etdiyi qəbul edilmişdir. O, Şirazın Müsalla bağlarında, sevimli Rüknəbad çayının sahilində dəfn edilmişdir.

Gözəl Şirazımın yoxdur misalı,
Uzaq qıl, Yarəbb, ondan hər zavalı.
O Rüknəbadinə əhsən, yüz əhsən!
Ki, Xızr ömrü verir xalqa zülalı.
Gözəldir Cəfərabadü Müsəlla,
Nəsimi məhv edər dərdi, məlalı.
Lətif bir ruhu sən Şirazdan istə,
Nişan versin elin əqli, kamalı.

Hafizin ölümündən dərhal sonra onun haqqında bir çox mistik rəvayətlər yaranmışdır.

Şair sağlığında öz əsərlərini divan halında tərtib etməmişdir. Onun divanının tərtibatı Məhəmməd Qoləndam tərəfindən 1410-cu ildə, Hafizin ölümündən təxminən 21-22 il sonra tamamlanmışdır. Hafizə aid edilən 569 qəzəldən ibarət digər divanını şairin gənc şagirdlərindən Seyid Qasimi Ənvər tərtib etmişdir.

Hafiz Şirazi yaradıcılığı XIV əsrdən sonrakı fars, ərəb və türk poeziyasına təsir göstərmişdir. Onun əsərləri bir çox dillərə tərcümə edilmişdir.

Hafizin divanını türkcəyə ilk dəfə Əbdülbaki Gölpınarlı çevirmiş və 1944-cü ildə İstanbulda nəşr etdirmişdir. Şairin şeirləri Qərb dillərinə də tərcümə edilmişdir. Ən mühüm tərcüməni Cozef fon Hammer etmişdir. Divan 1812-1813-cü illərdə Ştuttqartda "Der Diwan von Mohammed Schemseddin Hafıs" adı ilə çap edilmişdir. Hafizi Hammerin tərcüməsindən oxuyan və onun şeirləri ilə maraqlanan böyük alman mütəfəkkiri Yohan Volfqanq Höte Hafizin lirik şeirlərini hər biri farsca başlıqlı on iki fəsildə toplayaraq "West Oestlicher Divan" adı ilə 1819-cu il Ştuttqardda nəşr etdirmişdir.

Hafiz Şirazinin poeziyasından nümunələri Azərbaycan dilinə tərcümə edənlər arasında Səməd Vurğun, Bəxtiyar Vahabzadə, Əli Kərimli, Təbrizli Həsən kimi şairlərimiz olmuşdur. Məqaləmizdə təqdim edilmiş şeir nümunələri "Hafiz Şirazi. Seçilmiş şeirlər" kitabından əxz edilmişdir. Tərcümələrin müəllifi Əbülfəzl Hüseynidir. Kitab 1967-ci il Azərnəşr tərəfindən çap edilmiş, 2004-

cü il “Öndər nəşriyyat” tərəfindən təkrar nəşr edilmişdir. Tərcümələri yüksək qiymətləndirmiş görkəmli dilçi, ədəbiyyatşünas, şərqşünas-fililoq, pedaqoq Əkrəm Cəfər (1905-1991) kitabın müqəddiməsində qeyd etmişdir: “Hafizin şeirini orijinaldakı bədii səviyyəsi ilə başqa dildə vermək çox çətindir. Şair Əbülfəzl Hüseyni.....Hafizin bir sıra şeirlərini müvəffəqiyyətlə tərcümə etmişdir.” (Hafiz Şirazi. Seçilmiş şeirlər, 2004)

**Hafiz Şirazinin poeziyasının mühüm cəhətləri**

Hafiz Şirazinin əsərləri öz vətənində fars ədəbiyyatının zirvəsi hesab olunur. Onun həyatı və poeziyası XIV əsrdən sonra fars yazısına böyük təsir göstərərək çoxlu təhlil və şərhlərə mənbə olmuşdur.

Hafizin ədəbiyyat nümayəndələri, hətta adi insanlar arasında böyük şöhrət qazanmasının ən əsas səbəblərindən biri şeirlərinin bəlağətli üslubudur. Azərbaycan əsilli roman yazıçısı, ədəbi tənqidçi, siyasi mühacir və şair, professor Rza Bərahəni (1935, Təbriz – 2022, Toronto) (http://www.hafizonlove.com/bio/) “Təla dər mes” (Misdə qızıl) kitabında yazmışdır:
*“Hafiz öz həyatını, aid olduğu cəmiyyəti və tarixini simvol və metaforlar vasitəsilə, dövrünün ən transsendental şeir forması olan qəzəl formasında təqdim etmişdir. O, dilin bütün gözəlliklərindən öz fitrətini və içindəki ali həqiqəti, yaxud ictimai-tarixi mühiti təsvir etmək üçün istifadə etmişdir*”. (Rza Bərahəni, 1968)

Hafiz özü isə bu barədə belə yazmışdır:

Hafiza, etmə şikayət ki, nədir qismətimiz.
Olmusan böylə qəzəl mülkünə sultan, bəsdir.

Hafiz öz şeirlərini Qurani-Kərimdən, mistik mövzu və məsələlərdən istifadə edərək zənginləşdirmişdir. Onun bir çox şeirlərində dini anlayışlar vardır. Hafiz İslamın sevgi anlayışını genişləndirərək, Allah sevgisini insan sevgisi ilə birləşdirmişdir. O, Allahla olan dialoqu ustalıqla təqdim etmişdir. Bu dialoqlar mistik və ruhi bir dildə ifadə olunmuşdur. Şair Allahla olan münasibətini sevgi, həsrət və ruhsal aydınlanma kontekstində təqdim etmişdir. Bu münasibət insanın ruhi və mənəvi yüksəlişi üçün bir vasitədir. Şair “Gözəl olan, sevgili olan Allahın özüdür” kimi düşüncələrlə, mütləq gerçəkliyi, yaradılışın və sevginin mənbəyi olaraq Allahı tərənnüm edir.

Ey Rəbbim, sənin sevgin mənim canımın canı,
Sənin sevgin hər bir dərdin dərmanı.

Hafizin İran mistik sufi poeziyasının simvolu olduğunu nəzərə alsaq, onun şeirlərinin əsas və əhəmiyyətli cəhəti mənəvi aspektlərə əsaslanmasıdır.

Şairin şeirlərində iman və dini məsələlərlə yanaşı, cəmiyyət və ictimai mövzular da geniş şəkildə öz əksini tapmışdır. Onun təsvir etdiyi əxlaq zahiri əxlaqla məhdudlaşmır. Hafiz əxlaqın əsasının insanın mənəvi xarakterində yerləşdiyini vurğulayır.

Surətin lazım deyil, batində sən mərdanə ol,
Mərd olan fəxr eyləməz zahirdəki ünvan ilə.

Mərdlik öyrən, kərəm et, bəxşiş elə dünyadə,
Yoxsa heyvan da mey içmir, niyə insan olmur?!

Hafiz dinin hegemonluğu, dini məsələlərin böyük əhəmiyyət kəsb etdiyi bir dövrdə yaşamışdır. Odur ki, rifah və ilahi elmin əldə olunması vasitəsi olan İslam dini və Quran dövrün

ədəbiyyatında, xüsusən də Hafiz poeziyasında öz əksini tapmışdır. Qurani-Kərim məsələləri şairin fikirlərini əks etdirən ən mötəbər sənəddə, yəni onun qəzəllərində mühüm yer tutmuşdur. Onlar qəlbdən gələn idrak və mərifətlə doludur. Şairi tanımaq və anlamaq üçün oxucunun həm ədəbi biliyi, həm də dini məsələlərlə yaxından tanışlığı tələb olunur.

Hafiz dövrünün bütün ədəbi, dini və mistik elmlərinə bələd olduğundan onun insanlıq və əxlaqa söykənən müdrikliyi bəşəriyyət üçün bir məktəbdir. O, özü bu barədə yazır:

Hafizin şeri bütün elmi ədəb məktəbidir,
Afərin sənətinə, sözlərinin qüdrətinə!

Hafizin şeirləri bəşəriyyətin bütün arzularının və ideallarının illüstrasiyasıdır. Onun şeirlərində insan fiziki olaraq yerdə, qəlbən isə göylərdədir. Hafiz poeziyasında müasir sürrealizmin elementlərinə də rast gəlmək olar. Bu şeirlər məxmər parça kimidir: baxış bucağından asılı olaraq fərqli görünür. Ona görə də Hafizin şeirlərini mistik və romantik bir baxışın vəhdəti ilə oxumaq lazımdır.

Şairin cəmiyyətdəki mövqeyi, iman və dini təlimlərə bağlılığı, ictimai hadisələrə mistik nöqteyi-nəzərdən baxışı onun poeziyası üçün xarakterik olan bir sıra cəhətləri müəyyən etmişdir. Bu cəhətlərdən birincisi Hafizin dini və ictimai düşüncələrində sıravi insanın mövqeyidir.

Hafizin bəşəriyyətin güzgüsü kimi tanınmasının səbəblərindən biri onun insanı hərtərəfli əks etdirməsi olmuşdur. O, həm maddiyyata, dünya həyatına, həm də mənəvi məsələlərə dəyər verir.

Mərifət gövhəri öyrən ki, sənindir əbədi,
Özgənindir nə qədər olsa qızıl dünyadə.

Şairin yaşadığı dövr və ondan sonrakı dövrlərdə ictimai fikir barədə məlumat olmasa da, şairin əsərləri zaman və məkandan kənara çıxır. Onun humanizm mesajı sərhədləri aşaraq, azad düşüncə və azadlıqsevərliyi ilə dünya oxucusunun qəlbini ovsunlamaq qabiliyyətinə malikdir. Hafizin poeziyası İranın zəngin mədəniyyətindən bir parça olaraq mücərrəd bir mədəniyyəti təmsil edən azad düşüncə hərəkatıdır. Müasir dövrün təbirincə Hafizin şeirlərində əsl demokratiyaya rast gəlirik və çağdaş dövrdə ictimai hərəkatların daim demokratiyanı izah etməyə və təhlil etməyə çalışdıqları terminləri də tapa bilərik. Ruha və cəmiyyətə zərər verməyəcək dərəcədə azad olmaq həm dini, həm də sosial hüquq tərəfindən verilən hüquqlardandır və bu, dini və sosial məsələlərin məcmusunda əsas elementdir. Bu məsələlərdə sərbəstliyə hörmət Hafiz poeziyasının digər mühüm cəhətidir.

Demirəm indi nə iç, ya ki otur kimlər ilə,
Gözlərin bağlı deyil, öz-özünün qeydinə qal!

Hafizin azad təfəkkürü elədir ki, mistik yanaşmasına və təsəvvüfə doğru meylinə baxmayaraq, gördüyü bir sıra qatı askentik davranışları qəbul etmir, sufilik tərəfdarlarının qatı sərtliyini tənqid edir. O, həmişə ictimai yanlış təsəvvürlərlə mübarizə aparır, yaşadığı cəmiyyətdə gördüyü bir sıra əxlaqi, sosial, siyasi, dini, maarif, intellektual və digər sahələrdə pozuntulara etiraz edirdi. Cəmiyyətin həqiqətləri sərbəst ifadə etməsi, insanların öz əqidəsində, ədəbində, ictimai münasibətlərində və davranışlarında özünə və başqalarına zərər verməyən azadlığa inanması ədəbiyyatda az rast gəlinən ən mühüm xüsusiyyətlərdən biridir.

Nə istəsən elə, ancaq toxunma özgəsinə
Ki, bundan ayrı günah yox bizim təriqətdə.

Qeyd edək ki, VIII əsrə qədər ədəbiyyatda bu mövzuya toxunulmamışdır.

Hafiz üçün sosial məsuliyyət çox vacib idi. O, cəmiyyət qarşısındakı məsuliyyətini öz qəzəllərində ictimai məsələləri qabartmaqla nümayiş etdirmişdir. Şairin güclü sosial məsuliyyət hissi onu bir qrup insanın sərvət və firavanlıq içində, cəmiyyətin böyük bir hissəsinin isə yoxsulluq içində olduğunu təsvir etmək üçün ziddiyyətli ifadələr işlətməyə təşviq etmişdir:

Soydu bu dövran bizi, yox qorxumuz heç kimsədən.
Müflisik, müflisləri qorxutmayın divan ilə.

Xəsislər varlanıblar hiylə ilə,
Aman istər hünər əhli gədadən.

Tutubdur aləmi dərd ilə möhnət
Bu gün fəzl əhli qan ağlar bəladən.

Dönür cahillərin rəyilə dövran,
Doyublar dünyadə zövqü səfadən.

Hafizdən əvvəlki şairlərin heç biri öz əsərlərində lazım olduğu qədər ictimai-siyasi ağrıları əks etdirməmiş, cəmiyyətdə yaşanan təşviş və böhranları təsvir etməmişdir. Ona görə də onların şeirlərində o dövrün ümidsizlik, həyəcan və çaşqınlıq hissinin aydın mənzərəsini görmək mümkün deyil. Hafiz isə deyir:

Cahil yetişib cəhl ilə dünyadə cəlalə
Fəzl əhli nədən əhd ilə peymanə yetişməz.

Çatmış sümüyə indi bıçaq, neyləyim artıq
Etsəm də fəğan ölkədə bir yanə yetişməz.

Hafiz gül-bülbül, eşq-məhəbbətlə yanaşı, müxtəlif mövzularda sərbəst düşünən, şeirdə daha dərin yeni anlayış və yozmalar ifadə edən yeganə şairdir. *"Hafiz keçmiş dövrlər boyu İran poeziyası və təfəkküründə insan xəyallarının həqiqi nümayəndəsi ola bilər, o, xalqa ictimai həqiqətlərin aydın və dəqiq mənzərəsini göstərməyə çalışmışdır"* (https://www.worldhistory.org/Hafez_Shiraz/).

Zülm olsa, hədərdir dünya dövləti,
Qəm olsa, heç olar varlıq ləzzəti.

Əlbəttə, Hafiz sadəcə cəmiyyətin qəm-qüssəsini, iztirabını təsvir etmir, hərdən böhran və problemlərin həlli yollarını da təklif edirdi:

Sufiyanə sənə mən bir dənə söz söyləyirəm,
Gözünün nuri kimi sülhü qoru dünyadə!

Hərdən də gələcəyə ümidini və nikbinlik ruhunu əks etdirirdi:

Meylimizlə dönmədi üç gün əgər çərxi-fələk,
Daimən bir halda qalmaz heç də dövran, qəm yemə.

Kəbeyi-məqsəd dalınca sən piyadə vur qədəm,
Min tikan tutsa yolu, yorsa biyaban, qəm yemə.

Səbr elə, qəmli könül, daim ümid ilə yaşa,
Bu gecə sübh olacaq, gül açacaq nurlu səhər.

O, dərindən inanırdı ki, cəmiyyət ağır sıxıntılara məruz qalmasına, gəmisinin güclü zədələnməsinə baxmayaraq, inkişaf və məqsədə doğru birlikdə hərəkətə edib sınmış gəmini salamat və təhlükəsiz sahilə çıxara bilər:

Bu fəna seyli əgər dünyaları viran edə
Nuh rəhbərdir gəmində, qopsa tufan, qəm yemə.

Hafiz poeziyasının mühüm cəhətlərindən üçüncüsü ikiüzlülük və riyakarlığın tənqididir.

İkiüzlülük və riyakarlıq istənilən cəmiyyəti məhv edən məsələlərdəndir. Bu cəhətlər bütün dini təlimlərdə ciddi şəkildə tənqid edilmişdir. Şairin dövründə də bu problem dərinləşmişdi və Hafiz kimi ədəbiyyat nümayəndələrinin ruhunu çox zədələyirdi. Hafiz bu dilemmanı ictimai və dini inancların müxtəlif aspektlərində təsvir etmiş və insanları içdən gələn səmimiyyətə çağıraraq, riyakarlıq kimi rüsvayçı davranışdan xilas etməyə çalışmışdır. Şair belə hərəkətə nifrət etdiyini açıq şəkildə bildirir və belə insanlardan uzaq durmağı vurğulayırdı:

Birinci tapşırığı pirimin bu olmuşdur
Ki, nanəciblər ilə heç zaman rəfiq olma!

Hafizin yaşadığı cəmiyyətdə ikiüzlülük və riyakarlıq o qədər genişlənmişdi ki, bəzi alimlər və sufilər də bu işə qarışmışdılar. Hafiz onların da ikiüzlülük və riyakarlığa qarışmalarını şiddətlə tənqid edib, davranışlarını pisləyirdi:

Atıb bu məscidi, dostlar, gedək meykədəyə,
Yalançılar sözünü dinlədik, kifayətdir!

Məclisin aliminə bir sualım var, soruşun:
Tövbəyə əmr verənlər niyə az tövbə edər?

Bundan böyük ibadət yoxdur ki, zahidanə
Minbərdə işvə ilə aldatmıram bu xalqı.

Şair həmişə ikiüzlülük və riyakarlıq etməkdən qorxurdu; onlardan qorunmaq üçün etibarlı bir sığınacaq axtarırdı. O, riyakarlığı dinin, dindarlığın düşməni, mömininin ruhunu məhv vedən xüsusiyyət hesab edirdi:

İstərəm parçalayam mən bu riya paltarını,
Ruh üçün söhbəti nacinsin əzabdır əbədi.

Hafiz bütün cəmiyyətə xitab edərək, onu riyadan, riyakarlıqdan uzaq olamağa çağırırdı:

Yox bir kəsə ziyanı gizli olan günahın,
Üzdə riya üzündən əsla ibadət etmə.

Bu göy çadırlı cahanda o kimsənin quluyam
Ki, hər nə rəngü riya var kənar olub ondan.

Nəsihət eyləyirəm, dinləyib əməl eylə
Ki, pirimiz bu yolu öz əlilə verdi nişan.

**Nəticə**

Məqalədən belə nəticəyə gəlmək olar ki, Hafizin poeziyasında mühüm cəhətlərdən birincisi şairin poetik düşüncələrinin əsas ünvanının insan, insanlıq və humanizm olmasıdır. Şair arzuolunan insani keyfiyyətləri dönə-dönə tərənnüm etmişdir. Bu cəhətdən Hafiz Şirazini ədəbi dil və təhlillə dini təlimlərdə tövsiyə olunan insan obrazını təsvir edən, cəmiyyət fərdlərinə həyatı mənəvi təmiz insan kimi yaşamağı öyrədən müəllim hesab etmək olar.

Sən təmiz qəlbin ilə kaminə çatdın, Hafiz.
Qəlbi pak insana mən canımı qurban edərəm.

Belə bir insan tərbiyəsi və təsviri utopiya üçün səciyyəvidir. Azadlıq və azad düşüncə Hafiz poeziyasının ikinci əsas mühüm cəhətidir. Ondan əvvəlki şairlərin əsərlərində belə bir sərbəstlik mənzərəsinə rast gəlinmir. Hafiz bir sosioloq ədib kimi, açıqfikirlilik, fikir və əqidə azadlığı məsələlərini şeirlərində dəqiq və məharətlə təsvir edir ki, bu da oxucunu ruhlandırır.

Şairin yaradıcılığında üçüncü mühüm cəhət riya və yalanın tənqididir. Əsrlər boyu istər İslam dini, istərsə müasir dövrümüzdə sosiologiya elmi tərəfindən qınanılan xüsusiyyətlərdən biri də ikiüzlülük və riyakarlıq, riyanın təbliğidir. Hafiz də bu çirkin əməli fitnə-fəsad, ədalətsizlik və inamsızlıq yaradan mənfur əməl hesab edərək tənqid edir, səmimiliyi, düzgünlüyü tərif edirdi.

Dil açıbdır hamı ki, aşiqəm o dildarə,
Dili ilə ürəyi bir olana qurban olum.

Farsdilli ədəbiyyatın ən gözəl nümunələrinin müəllifi Hafiz Şirazinin poeziyada novatorluğuna, mütərəqqi ideyalarına həsr olunmuş məqaləmizi böyük şairin dərin mənalı müdrik misraları ilə tamamlamaq istəyirik:

Baxma yol dəhşətlidir, məqsəd nəzərlərdən uzaq,
Hansı müşgül olmayıb axırda asan? Qəm yemə.
Söyləmə, Hafiz, mənə bəsdir dua Quran ilə,
Sidq ilə olsan əməldə sən müsəlman, qəm yemə.

## ƏDƏBİYYAT

Hafiz Şirazi. (2004) *Seçilmiş şeirlər*. “Öndər nəşriyyat” Bakı, 208 səh.

Hans de Bruijn, Ashgar Seyed Gohrab, 2020, *“Pearls of Meaning”, Studies on Persian Art, Poetry, f.sm and History of İranian Studies in Europe.* Leiden University Press

Rza Bərahəni. (1968). *Təla dər mes. (Misdə qızıl),*

Jonathan Bloom. (2002) Islam: A Thousand Years of Faith and Power. Yale University Press, P. 166.

https://www.degruyter.com/document/doi/10.24415/9789400603820-014/pdf?licenseType
De Bruijn J.T.P., 2020, *The Religious Use of Persian Poetry*. Leiden University Press

İran Press (Europe) (2022) İmportance of religious poetry among famous İranian poets. *İran Press News Agency,*

https://iranpress.com/importance-of-religious-poetry-among-famous-iranian-poets

http://www.hafizonlove.com/bio/ Shahriar Shahriari, (2005). *Biography of Hafiz,* Los Angeles, CA

Rza_Bərahəni. (2020). https://az.wikipedia.org/wiki/Rza_Bərahəni

Hafiz Şirazi, *wikipedia məqaləsi*

https://az.wikipedia.org/wiki/Hafiz_Şirazi

https://www.worldhistory.org/Hafez_Shiraz/ Joshua J. Mark.(2020). *Hafez Shiraz- World History Encyclopedia*

https://news.stanford.edu/stories/2016/07/complex-view-islam-found-poetry-iran Kathryn Dickason, (2016). *Complex view of Islam found in poetry of Iran,* Stanford researcher shows, Stanford University

Википедия, *Биография Хафиз* (2024)
https://ru.wikipedia.org/wiki/Хафиз_Ширази#Биография

## РЕЗЮМЕ

***Рауф ГУЛУЗАДЕ***

### *Социальные и религиозные темы в творчестве Хафиза Ширази*

***Ключевые слова:*** *XIV век, восточная поэзия, стихотворение, Хафиз Ширази, религия, социальные проблемы, общество и прогрессивные идеи в поэзии, Хафиз Ширази и социальная ответственность*

Целью настоящей статьи является анализ масштабов и характера новаторства в социальной и религиозной тематике, отраженной в поэзии Хафиза. Важнейшим аспектом поэзии Хафиза является изложение социальных и религиозных убеждений, идей о лицемерии наряду с реализацией свободы в обществе в новом современном стиле.

Развитие религиозной поэзии было одним из наиболее решающих процессов в истории персидской литературы. На самом раннем, становительном этапе религиозной поэзии —в периоде развития от ее первого появления до конца XII в. — возникает ряд поэтических жанров, характерных для этого типа поэзии. Нельзя не упомянуть, что гениальный персидский поэт и суфийский шейх Хафиз Ширази прекрасно выразил концепцию Корана в форме поэзии. Обогатив свои стихи использованием Священного Корана, поэт представил свои отношения с Богом в контексте любви, тоски и духовного просветления.

Помимо вопросов веры и религии, в его стихах широко отражены общественно-социальные вопросы. Положение Хафиза в обществе, его приверженность вере и религиозному учению, взгляд на общественные события с мистической точки зрения определили ряд особенностей характерных для его поэзии. Первый из этих аспектов - это позиция простого человека в религиозных и социальных мыслях Хафиза.

Уважение свободы в религиозных и социальных вопросах – еще один важный аспект поэзии Хафиза. Его поэзия — это движение за свободу мысли, представляющее абстрактную культуру, как отрывок из богатой культуры Ирана. По словам современности, в стихах Хафиза мы находим настоящую демократию. Осветив социальные проблемы в своих газелях, он продемонстрировал свою ответственность перед обществом.

Третьим важным аспектом поэзии Хафиза является критика лицемерия и лжи. Хафиз критиковал этот безобразный поступок, порождающий несправедливость и недоверие в обществе и высоко ценил искренность и честность.

Хотя сведений о биографии поэта, особенно о его молодости, очень мало, иранские литературоведы, составившие в разные годы диван Хафиза, собрали интересные сведения о влиянии событий, произошедших на разных этапах его жизни на его творчество. Произведения Хафиза Ширази, считающиеся вершиной персидской литературы, после XIV века оказали влияние не только на персидскую поэзию, но и на тюркоязычную литературу.

## ABSTRACT

***Rauf GULUZADE***

***Social and Religious Themes in the Poems of Hafez Shirazi***

***Keywords:*** *14th century, oriental poetry, poem, Hafiz Shirazi, religion in poetry, social problems, society and progressive ideas, Hafiz and social responsibility*

The present aritcle tends to analyze the extent and manner of innovation of Hafez in the social and religious themes. The most important aspect of Hafiz's poetry is the presentation of social and religious beliefs, ideas about hypocrisy along with the implementation of freedom in society in a new modern style.

The development of religious poetry was one of the most decisive processes in the history of the Persian literature. The brilliant Persian poet and Sufi Sheikh Hafiz Shirazi beautifully expressed the concept of the Quran in the form of poetry. By enriching his poems with the use of the Holy Quran, the poet presented his relationship with God in the context of love, longing and spiritual enlightenment.

In addition to the issues of faith and religion, his poems widely reflect social issues. Hafiz's position in society, his commitment to faith and religious teaching, and his view of social events from a mystical point of view determined a number of characteristic features of his poetry. The first of these aspects is the position of the common man in Hafiz's religious and social thoughts.

Respect for freedom in religious and social matters is another important aspect of Hafiz's poetry. According to modern times, we find real democracy in Hafiz's poetry. By highlighting social issues in his ghazals, he demonstrated his responsibility towards the society.

The third important aspect of Hafiz's poetry is the criticism of hypocrisy and lies. Hafiz criticized this disgraceful act that creates injustice and mistrust in society and highly valued sincerity and honesty.

Although there is very little information about the poet's biography, especially about his early life, the Iranian literary scholars who compiled Hafiz's diwan over the years have collected interesting information about the influence of events that occurred at different stages of his life on his work. The works of Hafiz Shirazi, considered the pinnacle of Persian literature, influenced after the 14th century not only the Persian poetry, but also the Turkic literature.